# GÜNDOĞAR

Qəzet 1931-ci ildən çıxır | NEFTÇALA RAYON QƏZETİ | 29 dekabr 2023-cü il, № 26 (68062)




## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

07 dekabr 2023, 12:00

**Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq qərara alıram:**

**1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.**

**2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 7 dekabr 2023- cü il**

## BİZ BURAYA QAYITMALI İDİK VƏ QAYITMIŞIQ!



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 dekabr 2023-cü ildə Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində çıxışından:***

“...İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq.

Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.

Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər.

Biz - bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində “İmarət” stadionunun yenidən inşa edilməsinə başlanılacaq.

...İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl- İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl – sentyabrın 19-20-də Xankəndi Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi.Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan bayrağını ucaltdım.Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi.Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik”...

## Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**25 dekabr 2023, 11:05**

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## “İSTEDADLAR AXTARIŞINDA” YARADICILIQ FESTİVALI UĞURLA NƏTİCƏLƏNDİ












**Uşaqların sevinci - hər birimizin sevincidir. 2024 - ci ilin gəlişi ərəfəsində Yeni Azərbaycan Partiyası Neftçala Rayon Təşkilatının əməkdaşları yardımsevər insanların gətirdikləri hədiyyələri Yenikənd, I-Mayak kəndlərində yerləşən 3 bağça, 2 ibtidai məktəbdə təhsil alan uşaqlara çatdırmışlar. Yeni il hər bir ailəyə xoş günlər gətirsin.**



**Həmyerlimiz, Azərbaycan Hərbi Hava Qüvvələrinin Pilotu Mayor Sabir Nəsirovu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunması münasibətilə təbrik edir, can sağlığı, uğurlu fəaliyyət diləyirik.**

# BÖYÜK EHTİRAM, QÜRUR İLƏ YAD EDİRİK

## Azərbaycanda siyasi sabitliyin bərqərar olması Heydər Əliyev fenomeni ilə birbaşa bağlıdır

Azərbaycanın 18 oktyabr 1991-ci ildə özünün ikinci dəfə dövlət müstəqilliyini elan etməsi tarixi hadisə idi. Təbii ki, müstəqilliyin elanı təkcə Ali Sovetin deputatlarının Müstəqillik Aktının lehinə səs verməsinin nəticəsi deyildi, bu proses özlüyündə də hadisələrin tarixi inkişafını tələb edirdi. Hadisələr isə ötən əsrin 80-ci illərinin sonlarından İmperiya rəhbərlərinin fəlsəfi dialektikanın qanunlarını yaxşı bilməməsi ilə start götürmüşdü. Azərbaycan xalqı 70 il əvvələ məxsus genetik yaddaşının tətikləri ilə qoşulduğu müstəqillik mübarizəsindən qələbə ilə ayrılacağına hər şeydən çox əmin idi. İmperiya rəhbərləri isə hələ də cəza metodundan istifadə etməklə hakimiyyətini qoruyub saxlayacağını düşünür, nəinki, düşünür, hətta əliyalın xalqa qarşı qanlı terror aktları icra edirdilər. Heç də təsadüfi deyil ki, 1990-cı ilin 20 yanvar hadisələri xalqımızın müstəqillik əzminin kuliminasiya nöqtəsi hesab olunur. Həmin hadisələrin yaddaqalan epizodlarından biri isə uzun illər Sovet İttifaqında çalışmış Heydər Əliyevin ən böyük milli təəssübkeş kimi xalqının yanında olması idi. Hadisələrdən dərhal sonra İttifaqın mərkəzində əli əliyalın xalqımızın qanınan bulaşan cəlladlara layiqli dərs verməsi həm orda, həm də Bakıda oturan imperialistlərdə tərs şillə effekti yaratdı. Azərbaycan xalqı Heydər Əliyevin simasında müstəqillik mübarizəmizin lideri ilə bir daha tanış oldu, onun cəsarətini, prinsipiallığını özünə nümunə götürdü.

"Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir", - deyən Ulu Öndər Heydər Əliyevin müdrik sözləri Azərbaycanın müstəqilliyinin ilk illərini ifadə edən ən optimal aforizmdir, desək, yanılmarıq. Burada biz müstəqilliyin tətbiqi formalarını nəzərdən keçirsək görərik ki, ilk iki il pozitiv müstəqillikdən söhbət gedə bilməz. Dövlət müstəqilliyimiz sadəcə kağız üzərində de-yure olaraq mövcud idi. O vaxt Azərbaycan rəhbərləri müstəqil siyasət həyata keçirmir, yaxud heç bunu istəmir, əksinə, ayrı-ayrı xarici qüvvələrin maraqlarına uyğun davranış nümayiş etdirir, kənar diktə və təsirlər altında fəaliyyət göstərirdilər. Öz şəxsi mənafelərini dövlətin və millətin maraqlarından üstün tutan şəxslər Azərbaycanı elə bir hala gətirmişdilər ki, yenicə əldə etdiyimiz kövrək müstəqilliyin itirilməsi an məsələsinə çevrilmişdi. Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı təcavüzü genişlənir, torpaqlarımız ard-arda işğal altına düşürdü, digər tərəfdən isə etnik qarşıdurma pik həddə çatmışdı. Siyasi xaos özünü iqtisadi anarxiya formasında biruzə verirdi. Küçədən hakimiyyətə gəlmiş bir qrup şəxs verdiyi bəyanatlarla Azərbaycanın beynəlxalq aləmdə təklənməsinə səbəb olmuş, qonşu dövlətlərlə münasibətlər tarixin ən pis dövrünə gəlib çıxmışdı. Siyasi və iqtisadi sabitsizlik, hərc-mərclik, işğalın genişlənməsi, vətəndaş müharibəsi təhlükəsi həmin dövrü xarakterizə edən ən uyğun anlayışlar səviyyəsinə yüksəlmişdi.

Paralel dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında sabitlik adasına bənzəyirdi. Naxçıvan, ümumiyyətlə, dövlət müstəqilliyimizin praktiki bərpası və siyasi ənənələrin formalaşdığı coğrafi-siyasi məkan kimi də xarakterizə olunur. Xalqımızın Ümummilli lideri 1990-cı ilin iyul ayında Bakıya, oradan isə Naxçıvana gəlməklə yeni bir tarixi mərhələnin təməli qoyuldu. Onu da təəssüflə qeyd etmək lazımdır ki, həmin dövrdə Bakıda hakimiyyətdə olanlar məhz Heydər Əliyevin xalq arasına nüfuzundan və bunun səbəb ola biləcəyi nəticələrdən qorxaraq, onun Bakıda qalmasına mane ola bilmişdilər. Lakin, onlar unutmuşdular ki, tarixi şəxsiyyətlər üçün məkan və zaman fərqi yoxdur. Ən böyük idealı müstəqillik olan Heydər Əliyev qısa müddət ərzində Naxçıvanı müstəqilliyin bərpası prosesinin öncülünə çevirməyi bacardı. 1990-cı ilin noyabrında, hələ Azərbaycanın müstəqilliyini bərpa etməsinə doqquz ay, Sovet İttifaqının süqutuna isə bir ildən artıq vaxt qaldığı halda, Naxçıvan MSSR-in adından Sovet və Sosialist sözlərinin çıxarılması, Azərbaycanın üçrəngli dövlət bayrağının Naxçıvanın Ali Sovetində dalğalandırılması, Kommunist partiyasının fəaliyyətinin dayandırılması uzaqgörən siyasətçinin müstəqillik mübarizəsinin yeni formada tərənnümü və təzahürü idi. Ulu Öndər bütün çətinliklərə - blokada və müharibə şəraitinə, enerji və qida qıtlığına baxmayaraq, torpaqlarımızın müdafiəsini, Naxçıvanın bütövlüyünü, qonşu respublikalarla qarşılıqlı əlaqələri qurmağı bacarmışdı. Onun qurub-yaratdığı ən ali dəyər isə



siyasi ənənə idi. Böyük siyasətçinin memarı olduğu Yeni Azərbaycan Partiyası müstəqil Respublikamızın adından da göründüyü kimi yeni dövrünün carçısı oldu.

Həmin dövrdə 1992-ci ilin ortalarından Azərbaycanda hakimiyyətə gəlmiş yeni iqtidar hər keçən gün vəziyyəti bir az da ağırlaşdırırdı. Cəbhədəki hərbi uğursuzluqlar isə cəmiyyəti ciddi sarsıtmışdı. Hərbi uğursuzluqları həzm edə bilməyən bir qrup əlisilahlı Gəncədə qiyama cəhd etməklə müstəqilliyin itirilməsinə gedən yolda mümkün sonuncu addımı atdılar. Bu, təkcə, hakimiyyət çevrilişi deyildi, həm də parçalanma, müstəqilliyimizin, dövlətçiliyimizin əldən getməsi demək idi. Bunu edənlər qədər, səbəbkarlar da eyni dərəcədə xalqa xəyanət etmişdilər. Xalq bu xəyanəti nə o vaxt, nə də heç vaxt bağışlamayacaqdır. Çıxış yolunu Ulu Öndər Heydər Əliyevin Bakıya qayıdışında görən milyonlarla azərbaycanlı müdrikcəsinə dövrün "rəhbərlər"inə də yeganə xilas yolunu göstərirdi. Ən çox onların uçuruma saldıqları vəziyyətdən çıxmağa, "canını qurtarmağa" ehtiyacı vardı. Heydər Əliyevin Bakıya dəvəti xalqın həm də Naxçıvan nümunəsinin Azərbaycanın digər bölgələrinə idxalı arzusuna xidmət edirdi. Heç vaxt xalqının çağırışlarına biganə qalmayan Ulu Öndər bu dəfə ən böyük tarixi missiya – müstəqilliyi qorumaq, möhkəmləndirmək və əbədiləşdirmək amalı ilə Bakıya qayıtdı. O, qayıtmaya bilməzdi. Bu dəfə də müstəqillik iki il olmamalı idi. Məhz müstəqilliyin əbədi olması üçün XXI əsr Heydər Əliyev fenomenini yetişdirmişdi.

Ulu Öndər Heydər Əliyevin Bakıya qayıdışından sonra onun, eləcə də respublikanın gündəliyində duran birinci məsələ qiyamın qarşısını almaq, daxili iğtişaşlara son qoymaq idi. Heydər Əliyevin həmin hadisələrin qaynar nöqtəsinə - Gəncəyə cəsarətli səfəri xalqın cücərən ümidlərinə yeni nəfəs verdi. Məhz Ulu Öndərin qətiyyəti, praqmatik və uzaqgörən siyasəti qardaş qırğınının qarşısını aldı. O, xalq üçün xilaskarlıq missiyasında birinci addımı uğurla atmışdı. Heç də təsadüfi deyil ki, Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçildiyi 15 iyun günü sonralar tarixə Milli Qurtuluş Günü kimi həkk olacaqdır. Həmin gün Ali Sovetdə çıxışı zamanı səsləndirdiyi "Mən buraya vəzifə üçün gəlməmişəm. Mən bu böyüklüyü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim" fikirləri Ulu Öndərin sələflərindən fərqli olaraq xalqa sonsuz sevgisinə, məqsədlərinin səmimiliyinə işarə edirdi. Bu böyük şəxsiyyət millət qarşısında verdiyi hər bir sözün üstündə durmağı və yeritdiyi məqsədyönlü siyasətlə Azərbaycanın müstəqilliyini dönməz etməyi layiqincə bacardı. Məhz onun yorulmaz səyləri nəticəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısı alındı, Bişkek protokolu ilə cəbhədə atəşkəsə nail olundu. Uzaqgörən lider çox yaxşı başa düşürdü ki, Ermənistan xarici havadarlarının dəstəyi ilə işğalı istənilən qədər davam etdirə bilər, ona mane olmağın yolu əks-hücum deyil, işğalı dayandırmaqdır. İşğalı dayandırmaq sabitliyin bərpa olunması, iqtisadi imkanların artırılması, ordu quruculuğu və s. bir-birilə əlaqəli nəticələrin hasil olmasına gətirib çıxaracaqdır.

Azərbaycan tarixən neft-qaz ölkəsi kimi tanınsa da, müstəqilliyinin ilk illərində yarıtmaz siyasətçilərin "səyləri" nəticəsində heç bir iqtisadi fürsət yaranmamışdır. Nəzərə alsaq ki, İttifaqın iqtisadiyyatı ixtisaslaşma prinsipinə əsaslanırdı, deməli, xarici investorların cəlbi və onların təcrübəsinin tətbiqi zəruri idi. Ulu Öndər Heydər Əliyevin ilk dəfə prezident seçilməyindən heç bir il keçmədi ki, Azərbaycan neftinin hasilatı və ixracını nəzərdə tutan "Əsrin müqaviləsi" imzalandı. Adı qədər özü də sözün həqiqi mənasında əzəmətli olan müqavilə 400 səhifədən ibarət idi. Bu, Azərbaycan iqtisadiyyatına ilk irihəcmli investisiyanın yatırılması, əsasən xarici sərmayə hesabına neftimizin dünya bazarına çıxarılması istiqamətində birinci belə addım idi. Məhz Heydər Əliyevin nüfuzu, diplomatik məharəti xaosun məngənəsindən xilas olmağa çalışan Azərbaycana böyük etimad yaratmışdı. Dünya dövlətləri Heydər Əliyev şəxsiyyəti fonunda Azərbaycanın işıqlı gələcəyindən əmin idilər. Bu hələ başlanğıc idi, Ulu Öndər qarşısına qoyduğu məqsədləri bir-bir yerinə yetirirdi. Əsası "Əsrin müqaviləsi" ilə qoyulan iqtisadi inkişaf bir müddət sonra tərəqqi edəcək, yeni imkanlar yaradacaqdı. Neft və qazdan gələn gəlirlər iqtisadiyyatın və ölkənin digər sahələrinə, əhalinin sosial rifahının yaxşılaşdırılmasına sərf olunacaqdı.Təbii idi ki, bu bir çoxlarının, xüsusilə, ermənipərəst qüvvələrin marağında deyildi, hətta arzuolunmaz kabusuna çevrilmişdi. Dövləti cinayətdə təqsirləndirilənlərin təcridxanadan qaçırılması, siyasi qətllər, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart qiyamları Heydər Əliyevin siyasi iradəsinə təsir göstərmək, Azərbaycanı yenidən çıxılmaz və çətin vəziyyətə geri qaytarmaq istəyən qüvvələrin məkrli planlarını reallaşdırmaq cəhdlərindən sadəcə bir neçəsi idi. Ulu Öndər xalqa arxalanaraq bütün qüvvələrin planlarını pozmağa, müstəqil siyasətini davam etdirməyə nail oldu.

Azərbaycan gündəliyinə siyasi və iqtisadi sabitlik, milli həmrəylik, vahid ideologiya hakim oldu. Heydər Əliyevin bütün dövrlərə hesablanmış azərbaycançılıq ideologiyası etnik ayrıseçkiliyin qarşısını aldı, hər kəsi eyni amal uğrunda birləşdirdi. Hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyəti institutunun formalaşması, demokratik dəyərlərin möhkəmləndirilməsi istiqamətində böyük işlər görüldü. Azərbaycan beynəlxalq birliyin bərabərhüquqlu tərəfinə çevrildi. Möhtərəm Prezident İlham Əliyev həmin dövrlə bağlı danışarkən belə qeyd edir: "1993-cü il, əslində, real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı. Qanunsuz silahlı birləşmələr tərk-silah edildi, separatçı qüvvələrə böyük zərbə vuruldu və Azərbaycan inkişaf yoluna qədəm qoydu."

Ulu Öndər Heydər Əliyevin layiqli varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasi kurs XXI əsr Azərbaycanını regional, hətta qlobal miqyasa yüksəltdi. Ötən dövr əsasən müstəqilliyimizin, həmrəyliyimizin möhkəmlənməsi, siyasi və iqtisadi tərəqqi, güclü ordunun formalaşması ilə səciyyələnir. Heç əbəs yerə deyil ki, Prezident İlham Əliyev hər zaman dövlət müstəqilliyini dəyərli sərvət, onun qorunmasını isə ən vacib vəzifə kimi qarşıya qoyub. ***"Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm"*** – deyən Prezident Azərbaycanı tam və real müstəqillik yollarında addımlayan nadir ölkələrdən birinə çevirib. Azərbaycan həm də ona görə nadir dövlətlərdəndir ki, ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Lakin, bütövlüyə qovuşmaq uğrunda qət etdiyimiz yol heç də asan olmayıb. Məhz cənab İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycanın yeni investisiya və digər maliyyə mənbələri hesabına iqtisadi imkanları dəfələrlə artırılıb.

⇨ 5

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XATİRƏSİ BÖYÜK EHTİRAMLA YAD EDİLDİ



12 dekabr 2023-cü ildə Ulu Öndər Heydər Əliyevin xatirəsi Neftçala rayonunda da böyük ehtiramla yad edildi. Neftçala rayon Heydər Əliyev Mərkəzinin qarşısında təşkil olunan anım mərasimində Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının, idarələrin, müəssisələrin, təşkilatların rəhbərləri, din xadimləri, şəhid ailələri, ziyalılar və rayon ictimaiyyəti tərəfindən Ulu Öndər Heydər Əliyevin əzəmətli heykəli ziyarət olundu, böyük rəhbərə xalq məhəbbəti gül dəstələri ilə ifadə olundu.

Anım günündə ziyarətçilər həmçinin ,Neftçala rayon Heydər Əliyev Mərkəzində dahi liderin əziz xatirəsinə həsr edilmiş sərgi ilə tanış oldular. Ulu Öndərin xalqa bağışlanan ömür yolu dəyərbilən xalqımız tərəfindən heç zaman unudulmayacaqdır. Bu yol Azərbaycanı daim qoruyaraq gələcək əsrlər üçün daha möhkəm dayaqlarla irəliləməsinə səbəb olacaqdır. Biz xalq olaraq bu yolun əbədiyyət işığına inanırıq. Ruhun şad olsun, ey böyük rəhbər. Sənin xidmətlərin Azərbaycanla qoşa yaşayacaqdır. Bu ideyaların kökündə dayanan xalq sevgisi onların əbədi olan şöləsini daim qoruyacaqdır.







# BİZ BİRLİKDƏ GÜCLÜYÜK!







Dekabr ayında səyyar görüşlər davamlı olaraq hər həftə tərtib edilmiş cədvəl üzrə Neftçala rayonunun Şorkənd, Dördlər və Ballıcallı, Xanməmmədli və Ramazanlı kəndlərində həyata keçirilmişdir. Görüşlərdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və hər bir ərazi üzrə kənd sakinləri iştirak edib.

Səyyar görüşlərdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu yad edilib. Görüşlərdə seçilmiş mövzular üzrə dövlət siyasətinə dəstək olaraq təbliğat işi də həyata keçirilir. Belə ki, çıxış edənlər Şorkənd kəndində görüş zamanı "Türk dünyasının gücü birliyindədir" mövzusunda, Dördlər və Ballıcallı kənd sakinləri ilə görüş zamanı "Ulu Öndər Heydər Əliyev ölməz və əbədiyaşar Lider olaraq xalqımızın qəlbində daim yaşayır və yaşayacaqdır" mövzusunda, Xanməmmədli və Ramazanlı kənd sakinləri ilə görüş zamanı "Prezident cənab İlham Əliyevin yürütdüyü siyasət qarşıya qoyulan məqsədlərin uğurla reallaşdırılmasına yol açır" mövzusunda görüş iştirakçılarını məlumatlandırıblar.

Əhali ilə görüşlər zamanı çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov 44 gün davam edən Vətən müharibəsindən, müharibədə iştirak edən vətən oğullarının igidliyindən, döyüş yolundan, 2022-ci il sentyabr ayının 12-dən 13-nə keçən gecə və 10 aprel 2023-cü il tarixində düşmənin təxribatı zamanı hərbçilərimizin qəhrəman döyüş yolundan, eyni zamanda 2023-cü ildə sentyabr ayının 19-dan 20 - nə keçən gecə döyüşlər zamanı ordumuz üçün əhəmiyyətli yüksəkliklərin əldə olunmasından, düşmənin təxribatının qarşısını alarkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalan şəhidlərimizdən və yaralanan hərbçilərimiz haqqında məlumat verib. Bildirib ki, Neftçala rayonu qəhrəman oğulları ilə Vətənimizin müdafiəsində hər zaman öndə olmuşdur. Şəhidlərimizin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralı hərbçilərimizin tezliklə sağlamlıqlarına qovuşmalarını arzu edib.

RİH-in başçısı Mirhəsən Seyidov çıxışında 2023 – cü ildə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin rayonumuzda da geniş qeyd edilməsini, prezident İlham Əliyevin 20 il müddətində Azərbaycanda davamlı fəaliyyətinin uğurlu nəticələrini, həmçinin Azərbaycan - Türkiyə dostluğundan bəhs edərək bu istiqamətdə tarixin ən dəyərli səhifələrinin yazıldığını qeyd edib.

Səyyar görüşlər zamanı kənd sakinlərinin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Müvafiq tapşırıqlar verilib, icrası istiqamətləri müəyyənləşdirilib. Belə ki, vətəndaşların səsləndirdikləri ümumi problemlər əsasən, kəndarası suvarma kanalının lildən təmizlənməsi, kənd ərazisində su bulaqlarının sayının artırılması, kənddaxili yolların çəkilməsi, telekommunikasiya xətlərinin yenilənməsi, kənd ərazisində seçki məntəqəsinin olmaması istiqamətində təkliflər qeyd edilmişdir.

Görüşlərdə həmçinin məlumat verilib ki, vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yeni yaradılan "Rəqəmsal İcra Hakimiyyəti" https://rih.gov.az portalına daxil olmaqla müraciət imkanı əldə edə bilərlər.

## *Milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan səmərəli fəaliyyət*



4 dekabr tarixində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan səmərəli fəaliyyəti" mövzusunda görüş keçirilib.

Görüşdə iştirak edənlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uğurlu və genişmiqyaslı fəaliyyətinin ölkəmizin inkişafı, iqtisadi qüdrətinin artırılması, səhiyyə, təhsil sahəsində aparılan yenidənqurma işlərində yaxından iştirak etməsi, vətəndaşlara diqqət və qayğının gücləndirilməsi, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsi haqqında fikirlərini bildirmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət siyasətinə Mehriban xanım Əliyevanın böyük dəstək göstərdiyini, ali dəyərlərə söykənən fəaliyyətinin Azərbaycan xalqının və dövlətinin maraqlarını özündə əks etdirdiyini qeyd ediblər. Tədbir çıxışlar ətrafında müzakirələrlə davam edib.

# ŞƏHİDLƏR ƏBƏDİYAŞARDIR!

## Neftçala rayonunda 44 günlük Vətən müharibəsi şəhidi leytenant AYAZ İMANZADƏYƏ həsr olunan "Ayazda Sevdim izini" adlı filmin və "Onu Belə Xatırlayıram" adlı kitabın təqdimat mərasimi keçirildi



4 dekabr 2023-cü il tarixində Neftçala rayon Heydər Əliyev Mərkəzində 44 günlük Vətən müharibəsi zamanı Neftçala rayonunun ilk şəhidi olan leytenant İmanzadə Ayaza həsr olunan xatirə gecəsində şəhidin xatirəsinə həsr edilmiş rejissor Orxan Əzimin "Ayazda sevdim izini" adlı filminin və yazıçı-publisist Nəzakət Quluqızının şəhidin xatirəsinə qələmə aldığı "Onu Belə Xatırlayıram" adlı kitabının təqdimatı keçirilmişdir. Mərasimdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər, Vətən müharibəsi iştirakçıları, rayon ictimaiyyəti və qonaqlar iştirak edib. Tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların xatirəsi yad edilmiş, Dövlət Himni səsləndirilmişdir. Filmdə və kitabda şəhid haqqında yaxınlarının xatirələri, şəhidin döyüş yolu yer alıb. Mərasimdə çıxış edən şəhidin atası İmanov Daşqın, bacısı İmanzadə Rəna, Vətən Müharibəsi Qəhrəmanı şəhid Camal İsmayılovun anası Filarə İsmayılova, "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftaliyeva, təhsil işçisi, yazıçı, publisist Ruhəngiz Nəcəfova və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsi Neftçala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 5 saylı kitabxana filialının müdiri Nəzakət Məmmədova şəhid leytenant İmanzadə Ayaz haqqında xatirələrini bölüşüblər, onun həyat yolundan, igidliyindən və 44 gün davam edən Vətən müharibəsində qazanılan qələbəmizdən danışıblar. Mərasimdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirib ki, bu gün Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi yolunu uğurla davam etdirməsinin, uzaqgörən və qətiyyətli siyasətinin nəticəsində 30 ilə yaxın işğalda olan torpaqlarımız xalqımızın birliyi, müzəffər Ordumuzun peşəkarlığı sayəsində azad olundu və ölkəmizin suverenliyi tam bərpa olunub. Qəhrəman gənclərimizin vətən uğrunda göstərdiyi fədakarlıq dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onların hər biri orden və medallarla təltif edilib, ailələri dövlətin diqqət və qayğısı ilə əhatə olunub.

Şəhidin ailə üzvləri dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq ediblər. Tədbirin sonunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçularımızın əziz xatirəsinin əbədiləşdirilməsi və onların ictimaiyyət arasında tanıdılması istiqamətində göstərdikləri səmərəli fəaliyyətinə görə şəhid Abduləlimov Miqdadın anası Abduləlimova Tünzalə, Azərbaycan Fotoqraflar Birliyinin üzvü, rejissor Orxan Əzim, Şirvan- Salyan Regional Mədəniyyət İdarəsi Neftçala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 5 saylı kitabxana filialının müdiri Nəzakət Quluqızı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin II kurs tələbəsi Əvəzxan Əzizov "Təşəkkürnamə" ilə təltif ediliblər.

# "ƏSRİN MÜQAVİLƏSİ" TARİXİ ZƏFƏRİMİZƏ GEDƏN YOLUN BAŞLANĞICIDIR!



Neftçala Rayon İcra Hakimiyyətinin (Neftçala RİH) təşəbbüsü və "Neftechala Operating Company LTD" şirkətinin təşkilatçılığı ilə " "Əsrin müqaviləsi" tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda neftçilərlə görüş keçirilib.

Görüşdə Neftçala RİH-in başçısı Mirhəsən Seyidov, "Neftechala Operating Company LTD" şirkətinin Azərbaycandakı filial rəhbəri Anoxin Aleksandr Viktoroviç, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, **"Neftechala Operating Company LTD"** şirkətinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak edib. Görüş iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların, həmçinin rəhmətə gedən neftçilərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Görüşdə çıxış edən "Neftechala Operating Company LTD" şirkətinin Azərbaycandakı filial rəhbəri **Anoxin Aleksandr Viktoroviç**, "Neftechala Operating Company LTD" şirkətinin Azərbaycandakı filialının Təhlükəsizlik üzrə menecer müavini **Arif Bağırov,** H.Z.Tağıyev adına Əməliyyat Şirkətinin Əməliyyatlar üzrə direktoru **Ramin Quliyev,** neftçi, Vətən müharibəsi şəhidi **Murad Gözəlovun atası Zabil Gözəlov,** Vətən müharibəsi şəhidi **Maarif Əliyevin anası, neftçi Sevda Əliyeva** Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində Ulu Öndər Heydər Əliyevin banisi olduğu "Əsrin müqaviləsi"inin rolunun böyük olması, əhəmiyyəti haqqında fikirlərini bildiriblər. Bu gün neft sənayesində çalışan işçilərin sosial həyat şəraitinin gücləndirilməsi, onların iş şəraitinin yaxşılaşdırılması istiqamətində görülən müsbət yönümlü işlərə görə ölkə rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildiriblər. Çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin imzaladığı 16 avqust 2001-ci il tarixli fərmanla hər il Neftçilər gününün sentyabr ayının 20-də qeyd olunması Azərbaycanda neft sənayesində çalışanlara göstərilən diqqət və qayğının təzahürü olduğunu bildiriblər.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov bildirdi ki, 20 sentyabr 1994-cü il tarixində Gülüstan sarayında Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə "Əsrin müqaviləsi"in imzalanması ölkəmizin uğurlu inkişaf tarixinin ən önəmli hadisələrindəndir. Məhz bu tarixi hadisə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtmasından 1 il sonra baş verib. "Əsrin müqaviləsi" ilə müstəqilliyini möhkəmləndirən Azərbaycanın öz sərvətlərinə tam sahib olduğunu, Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu bütün dünyaya nümayiş etdirərək, Azərbaycan Respublikası ilə dünyanın inkişaf edən dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradaraq xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açıldığını vurğulayıb. Eyni zamanda dövlət qurumları ilə özəl şirkətlərin birgə əməkdaşlığının inkişafı istiqamətində şəraitin yaradılması mühüm addımlardan biri hesab olunur. RİH-in başçısı Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində "Əsrin müqaviləsi" tarixi Zəfərimizdə əhəmiyyətli rol oynayan amillər sırasında xüsusi yer alan iqtisadi və siyasi müstəqilliyimizin daha da möhkəmlənməsində mühüm rol oynayıb.

Görüşün sonunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov rayonun sosial iqtisadi həyatında göstərdikləri xidmətlərinə görə "Neftechala Operating Company LTD" şirkətinin Azərbaycandakı filial rəhbərinin İstehsalat üzrə müavini Neymışev Dmitri Sergeyeviç, "Neftechala Operating Company LTD" şirkətinin Azərbaycandakı filialının Binalara xidmət üzrə aparıcı mühəndisi Əhmədov Adil, "Neftechala Operating Company LTD" şirkətinin Azərbaycandakı filialının Neft və qazın təhvili, satışı şöbəsinin meneceri Əhmədov Ramiz Təşəkkürnamə ilə təltif olunublar.

# Azərbaycanda siyasi sabitliyin bərqərar olması Heydər Əliyev fenomeni ilə birbaşa bağlıdır

2 Azərbaycanın beynəlxalq tərəfdaşlarla qurduğu ikitərəfli və çoxtərəfli qarşılıqlı əməkdaşlıqlar onu dünyanın lider dövlətlərindən birinə çevirib. Əgər müstəqilliyin ilk illərində təbii enerji mənbələrinin hasilatı və ixracı iqtisadiyyatı dirçəltmək üçün zəruri idisə, hazırda bu resurslar həm də Azərbaycanın xarici siyasətində önəmli rol oynayır. İndi inkişaf etmiş Avropa dövlətləri də daxil olmaqla, onlarla ölkə Azərbaycan nefti və qazından asılı vəziyyətdədir. Əlbəttə ki, belə olan halda müstəqil siyasətin nəticələrini görmək və proqnozlaşdırmaq sadə məntiq tələb edir.

Azərbaycanın geosiyasi və geoiqtisadi potensialı ordu quruculuğu prosesinə ümdə təsir göstərir. Şəxsi heyətin peşəkar hazırlığı, müdafiə sənayesinin inkişafı, yeni silahların alınması təbii ki, maliyyə imkanları və dövlətlərarası əməkdaşlığın səviyyəsi ilə düz mütənasibdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yüksək hazırlıqlı Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqların icrasına və məqsədlərin reallaşdırılmasına hazır olduğunu son üç ildə bir neçə dəfə sübut edib. Bunlardan ilki ötən günlərdə qeyd etdiyimiz tarixi Zəfərlə başa çatan Vətən müharibəsi idi. Ermənistanın artan təxribatlarına cavab olaraq başlanılan Vətən müharibəsi Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan tarixi torpaqlarımızın cəmi 44 gün ərzində azad olunması ilə nəticələndi.Ərazi bütövlüyümüz bərpa olunmaqla yanaşı, erməni mifi də yerlə bir edildi. Ermənistan Azərbaycanın gücü qarşısında kapitulyasiyaya uğradı. Vətən müharibəsi Azərbaycanı həm də XXI əsrin müharibəsini aparmaq iqtidarı ilə dünyaya təqdim və sübut etdi. Azərbaycan artıq dünya üçün yeni nümunələr yaradırdı. Belə nümunələrdən biri də separatizmin tamamilə məhvini, beynəlxalq hüququn və ədalətin təktərəfli qaydada bərpasını özündə ehtiva edən lokal antiterror tədbirlərinin nəticəsində formalaşdı. Azərbaycan tam ərazi bütövlüyünə və suverenliyinə nail oldu. Ulu Öndər Heydər Əliyevin arzuları və vəsiyyəti reallaşdı. İndi inkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycan sabitlik və tərəqqi adası kimi dünyanın aparıcı ölkələri ilə bir sırada addımlayır.

**YENİ AZƏRBAYCAN PARTİYASININ NEFTÇALA RAYON TƏŞKİLATI**

## NEFTÇALA RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI APARATINDA 2024- CÜ İL ÜÇÜN VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

"Təsdiq edirəm"

Neftçala rayonu İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov

Əsas: Rayon İcra Hakimiyyəti başçısının 22 dekabr 2023-cü il tarixli 142 nömrəli Sərəncamı

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatında 2024-cü il üçün vətəndaşların qəbulu

CƏDVƏLİ

| № | Qəbul edən məsul şəxsin vəzifəsi | Soyadı, adı, atasının adı | Qəbul günləri və qəbul saatları | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | I | II | III | IV | V | VI |
| 1 | Rayon İcra Hakimiyyətinin başçısı | Mirhəsən Mirheydər oğlu Seyidov | - | - | - | - | 10:00 - dan | - |
| 2 | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Şaiq Seyfəddin oğlu Məmmədov | 15:00 - dan | - | - | - | - | - |
| 3 | Rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Burcalı Əlican oğlu Ağayev | - | 15:00 - dan | - | - | - | - |
| 4 | Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Elşən Həsənağa oğlu Əmirov | 15:00 - dan | - | - | - | - | - |
| 5 | Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri | Sadiq Bahadur oğlu Abbasov | 15:00- dan | - | - | - | - | - |
| 6 | Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar vəzifəsini müvəqqəti icra edən | Dilavər Qənbər oğlu Əliyev | - | - | 15:00 - dan | - | - | - |
| 7 | Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən şöbə müdirinin müavini – dini qurumlarla işin təşkilatçısı | Vasif Vaqif oğlu Əliyev | - | - | - | 15:00 - dan | - | - |

Qeyd:

1.Milli Qəhrəmanlar və onların ailə üzvləri, şəhid ailələrinin üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı vətəndaşlar müraciət etdikdə növbədənkənar qəbul olunurlar.
2.Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə, qəbul günləri növbəti iş gününə keçirilir.
3.Vətəndaşların qəbulu Rayon İcra Hakimiyyətinin internet saytı (www.neftchala-ih.gov.az) və qəbulla bağlı əlaqə telefon nömrələri (02126-3-42-43, 02126-3-42-57) vasitəsi ilə də əvvəlcədən növbə tutmaqla həyata keçirilir.

## "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 7 fevral 2024-cü il tarixdə keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı Neftçala rayonu ərazisində toplantı (yığıncaq, mitinq, nümayiş, küçə yürüşü, piket) keçirilməsi üçün müəyyən edilmiş açıq və qapalı yerlər barədə SİYAHI

Neftçala Rayonu İcra Hakimiyyəti başçısının "18" dekabr 2023 – cü il tarixli "136" nömrəli sərəncamı ilə təsdiq edilmişdir

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 7 fevral 2024-cü il tarixdə keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı Neftçala rayonu ərazisində toplantı (yığıncaq, mitinq, nümayiş, küçə yürüşü, piket) keçirilməsi üçün müəyyən edilmiş açıq və qapalı yerlər barədə

SİYAHI

| Sıra № si | Açıq yerlər: Ünvanı | Tutumu (nəfərlə) | Sıra №si | Qapalı yerlər: Ünvanı | Tutumu (nəfərlə) | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1 | Nəriman Nərimanov adına Neftçala şəhər stadionu | 10000 | 1 | Neftçala Olimpiya İdman Kompleksi | 767 | |
| 2 | Həsənabad qəsəbə Mədəniyyət evinin qarşısındakı ərazi | 3000 | 2 | Həsənabad qəsəbə Şadlıq evi | 150 | |
| 3 | Bankə qəsəbə Mədəniyyət evinin qarşısındakı ərazi | 3000 | 3 | Bankə qəsəbə Mədəniyyət evi | 200 | |
| 4 | "Melioservis" ASC-nin qarşısındakı ərazi | 3000 | 4 | Xıllı qəsəbə "Əfsanə" şadlıq evi | 200 | |
| 5 | Boyat kənd Diyarşünaslıq evinin qarşısındakı ərazi | 1000 | 5 | Boyat kənd "Dördlər" ziyafət evi | 200 | |
| 6 | Aşağı Qaramanlı kənd Folklor evinin qarşısındakı ərazi | 3000 | 6 | Aşağı Qaramanlı kənd Folklor evi | 300 | |
| 7 | Kürkənd kəndi, Neftçala Peşə Məktəbinin tədris korpusunun ərazisi | 500 | 7 | Kürkənd kəndi, Neftçala Peşə Məktəbinin akt zalı | 80 | |
| 8 | Aşağı Surra kənd Folklor evinin qarşısındakı ərazi | 1000 | 8 | Aşağı Surra Folklor evi | 300 | |
| 9 | Sübh kənd Kürağzı Nərə Balıq Yetişdirmə zavodunun qarşısındakı ərazi | 500 | 9 | Sübh kənd Kürağzı Nərə Balıq Yetişdirmə zavodunun iclas zalı | 100 | |
| 10 | Tatarməhlə kənd Diyarşunaslıq evinin qarşısındakı ərazi | 1000 | 10 | Tatarməhlə kənd Diyarşunaslıq evi | 150 | |
| 11 | Yuxarı Qaramanlı kənd klubunun qarşısındakı ərazi | 1500 | 11 | Yuxarı Qaramanlı kənd klubu | 100 | |
| 12 | Qaraqaşlı kənd Sənətkarlıq evinin qarşısındakı ərazi | 1500 | 12 | Qaraqaşlı kənd Sənətkarlıq evi | 70 | |
| 13 | Yeniqışlaq kənd klubunun qarşısındakı ərazi | 1500 | 13 | Yeniqışlaq kənd klubu | 100 | |
| 14 | Xəzər bələdiyyəsinin binasının qarşısındakı ərazi | 1500 | 14 | Xəzər kənd tam orta məktəbinin idman zalı | 150 | |
| 15 | Xol Qarabucaq kənd Folklor evinin qarşısındakı ərazi | 2000 | 15 | Xol Qarabucaq kənd Folklor evi | 200 | |
| 16 | Xol Qaraqaşlı kənd Folklor evinin qarşısındakı ərazi | 2000 | 16 | Xol Qaraqaşlı kənd Folklor evi | 200 | |
| 17 | Qırmızıkənd kənd Mədəniyyət evinin qarşısındakı ərazi | 2000 | 17 | Qırmızıkənd kənd Mədəniyyət evi | 200 | |
| 18 | Qaçaqkənd kənd Mədəniyyət evinin qarşısındakı ərazi | 1500 | 18 | Qaçaqkənd kənd Sudan istifadəedənlər Birliyinin iclas zalı | 100 | |

# SAĞLAMLIĞIMIZIN QORUNMASI ÜÇÜN NARKOMANİYAYA QARŞI MÜBARİZƏ APARMAQ HƏR BİRİMİZİN BORCUDUR




Azərbaycan Respublikasında sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Aparılan islahatlar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıq problemlərinin həlli üçün cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizəni zəruri etmişdir.

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Həmin problemin vurduğu ziyanın həcmi praktiki olaraq çox böyükdür və həm narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyasına, həm də müxtəlif cinayətlər törədilməsinə, cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir. Bu baxımdan, dünya dövlətləri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar.

"Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli 485 nömrəli Fərmanı ilə əsas vəzifəsi narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdən, bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edilmişdir. Respublikada narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində bir sıra təşkilati-hüquqi, institusional və əməli praktiki tədbirlər həyata keçirilmiş, narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak daha intensiv xarakter almışdır.

Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuşdur. Ölkəmizdə beynəlxalq standartlara uyğun normativ milli hüquqi baza yaradılmış, təkmilləşdirilmiş və onun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində xeyli iş görülmüşdür.

Cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır desək, yanılmarıq. Bəşəriyyət üçün bəla olan, irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biri də narkomaniyadır. Silah, insan alveri, orqanların transferi kimi təhlükəli bəlalarla eyni səviyyədə qorxulu olan cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniya (geniş mənada narkotizm) vurğulandığı kimi, sərhəd tanımayan, qlobal xarakter daşıyan beynəlxalq problemə çevrilib. Bu problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi xüsusi ilə yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsi prioritet məsələdir. Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq, bir çox ölkələrdə "Narkotiksiz gələcək naminə" milli proqramların qəbulu da təbii ki, sağlam gələcəyimiz üçün məsuliyyət hissindən yaranan vətəndaş borcudur. Bu proqramlara təhsil, səhiyyə ocaqlarında, hüquq mühafizə orqanlarında və digər təşkilatlarda narkomaniyanın ziyanı barədə maarifləndirilmə kampaniyaları daxildir. Keçirilən tədbirlərin kütləvi informasiya vasitələrində işıqlandırılması, internet şəbəkəsində yerləşdirilməsi mütləqdir. O da məlumdur ki, bəşəriyyət üçün ən təhlükəli bəla olan narkomaniya ilə bağlı problemləri dünya ictimaiyyətinin diqqətində saxlamaq məqsədilə BMT iyun ayının 26-nı "Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü" elan edib. Məhz həmin gün narkomaniya ilə mübarizə ilə bağlı atılan addımların hesabatı kimi dəyərləndirilir. Görülən işlər öz müsbət nəticəsini verdikdə gələcək üçün nəzərdə tutulan perspektivlərin müəyyənləşdirilməsi üçün vəzifələr də bəlli olur, daha səylə çalışmaq üçün stimul yaranır.

**İsmayıl Məmmədli**
**Neftçala Rayon Prokurorluğunun böyük köməkçisi, III dərəcəli hüquqşünas**

*Ümummilli Lider Heydər Əliyev demişdir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".*

# "AZLİNG-2023-Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı Beynəlxalq Elmi Konfrans kecirildi

**Neftçala rayon Heydər Əliyev Mərkəzi və Regional İnkişaf İctimai Birliyi (RİİB)-nin birgə təşkilatçılığı ilə neftçalalı alimlərin təşəbbüsü əsasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "AZLİNG-2023-Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı Beynəlxalq Elmi Konfrans kecirildi.**



23 dekabr 2023 - cü ildə Neftçala rayon Heydər Əliyev Mərkəzində təşkil edilən konfransda respublikanın tanınmış dilçi alimləri ilə yanaşı, Türkiyə, İngiltərə, Çin kimi xarici ölkələrdən olan alimlər və gənc tədqiqatçılar iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Neftçala rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Məmmədova qeyd edib ki, bu konfrans çox vacib bir mövzuya həsr olunub və qloballaşan dünyamızda doğma dilimizin qorunub saxlanılması qarşımızda dayanan ən vacib vəzifələrdən biridir. Konfransda fəxri qonaq qismində iştirak edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, Regional İnkişaf İctimai Birliyinin əməkdaşı Gülbağda Leysanova çıxış edərək Ümummilli Lider Heydər Əliyevin ana dilimizin inkişafı və qorunması ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasətin əhəmiyyətini xüsusi qeyd ediblər. Sonra AMEA Nəsimi adına Dilçilik İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru Qüdsiyyə Qəmbərova "AZLİNG-2023-Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı Beynəlxalq Elmi Konfransın materialları əsasında nəşr olunan linqvistik toplunun təqdimatını edərək, kitabın uğurlu elmi araşdırmaların davamı kimi Azərbaycan dilçiliyinə dəyərli töhfə olduğunu vurğulayıb. Tədbir Pekin Xarici dillər Universiteti Asiya fakültəsi Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevin moderatorluğu ilə davam etdirilib. Forumda çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin dil siyasətinin müasir Azərbaycan dilinə təsiri, Azərbaycan dilçiliyinin son nailiyyətləri, dilimizin saflığının qorunması yönündə həyata keçirilən islahatlar, tərcüməşünaslığın aktual problemləri haqqında fikirlərini auditoriya ilə bölüşüblər. Forum müzakirə formatında işini davam etdirib. Konfrans sonra panel iclaslarla davam edib, Azərbaycanın müxtəlif ali təhsil və elm ocaqlarının, eləcə də dünyanın müxtəlif universitetlərini təmsil edən 85 alim aktual dilçilik mövzuları ilə bağlı ən son tədqiqatlarını təqdim ediblər. Sonda iştirakçılara sertifikatlar təqdim edilib, konfransın materiallarından ibarət xatirə jurnalının tərtib olunması və növbəti ildə **"AZLİNG-2024 Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar"** adlı konfransın keçirilməsi qərara alınıb. Qeyd edək ki, Beynəlxalq Elmi Konfrans Prezident İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli Fərmanına uyğun olaraq 3-cü ildir ki, rayonumuzda keçirilir.

Rayonumuzda bu konfransın keçirilməsi fenomenal hadisədir. Neftçala belə bir tədbirə ev sahibliyi etdi. Alimlərin sayının hər il iki dəfəyə yaxın artmağı bizim işi düzgün həyata keçirməyimizdən irəli gəlir. Qonaqlardan, iştirakçılardan gələn xoş rəyləri gördükcə ürəyimiz sevincdən dağa dönür. Artıq dördüncü ili səbirsizliklə gözlədiklərini deyirlər. Qonaqlardan bir neçəsinin fikirlərini qeyd etmək istərdim: "Atam xəstəxanadadır, insult keçirib. Amma onu xəstəxanaya yerləşdirib, bura gəlməyi də vacib bildim. Gəlməyə bilməzdim. Keçən ildən həvəslə gözləyirdim. Digəri isə bildirdi ki, "Xarici ölkələrdə keçirilən konfranslara ikinci dəvəti alanda təkrarçılığa görə o qədər də maraqlı olmur. Burada isə üçüncü dəfə keçirilməsinə baxmayaraq gələcəyimi səbirsizliklə gözləyirdim. İnsan burada özünü yad hiss eləmir". Digər bir qonağımız da bildirdi ki, "Neftçalanın necə səmimi, gülərüz, mehriban insanları var, sanki illərdir burada yaşayırıq kimi hiss edirik..."

**Könül Məmmədova, Neftçala rayon Heydər Əliyev Mərkəzinin direktoru**

***Əziz oxucular! "AZLİNG-2023 Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" konfransının əhəmiyyəti, dilimizin qorunması istiqamətində sorğularımıza aldığımız cavablar, yəqin ki, hər biriniz üçün maraqlı olacaqdır.***



"AZLİNG konfransı Neftçala rayonunda artıq üçüncü ildir ki, keçirilir. Mən düşünürəm ki, üç istiqamətdə konfransda böyük dəyişiklik baş verib. İlk növbədə Azərbaycandan konfransda iştirak edən elm ocaqlarının, ali məktəb mütəxəssislərinin sayı artıb. İkincisi beynəlxalq səviyyədə Azərbaycan dilinin tədqiqi ilə məşğul olan alimlərin sayı artıb, ölkəni təmsil edirlər. Üçüncü isə, müraciət olunan mövzuları biz artıq bu konfransda konkretləşdirmişik. Müəyyən etdiyimiz alt mövzulara uyğun olaraq alimlər fikirlərini daha çox cəmləşdirirlər. Deyərdim ki, hər hansı səhvimizdən də öyrənmişik. Çalışmışıq ki, konfransa yeniliklər gətirək.Və bu yeniliklərlə növbəti illərdə də tanış olacaqsınız".

**Aqşin Əliyev, Pekin Xarici dillər Universiteti Asiya fakültəsi Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru**




"...Bu konfrans, həqiqətən, əhəmiyyətlidir. Sadəcə dilçilər üçün yox, ümumiyyətlə bütün vətəndaşlar üçün. Burada çıxış edərkən də qeyd etdim ki, insanları bir növ bu sahədə həssas olmasına xidmət edir. Neftçala əhalisi, sadə insanların da dinləmək imkanı olur. Maraqla baxırlar ki, bu dil məsələsi, dilimizə münasibət sadəcə dilçi alimlərin deyil, eyni zamanda gündəlik həyatda istifadə olunan alət olaraq hər kəs doğru şəkildə istifadə etməlidir. Dil eyni zamanda vətənpərvərlik üçün bir vasitədir. Sadəcə vətənpərvər deyib durmaq olmaz, vətənpərvərliyin ilkin şərtlərindəndir ki, öz dilində düzgün danışmaq və istifadə etmək bacarığın olsun. Heç bir dilin təsiri altında olmadan dildən istifadə edə biləsən.

Tərcüməçi olaraq da, mənim baxışım dilimizin tərcüməçilik sahəsində tətbiq edilməsidir. Çıxışımda dediyim kimi, hər bir tərcüməçi xarici dilləri gözəl bilməlidir. Amma ilk olaraq öz ana dilini gözəl bilməlidir. Ana dilini bilməyən şəxsdən tərcüməçi olmaz, bu aksiomadır.

Uzun müddət, 20 ildən çoxdur ki, Fransada yaşayıram. Və hər zaman orada tərcüməçilik fəaliyyəti ilə məşğul olanda məndən Azərbaycandan olan nümayəndə heyətinin üzvləri soruşurdular ki, "Necə olur ki, siz doğru şəkildə danışırsınız, heç bir kənar ləhcə hiss olunmur. Sözləri axtarmırsınız..." Bildirmişdim ki, mən bu dillə gündəlik məşğulam, bu mənim gündəlik peşəmdir. Ona görə də mən bu dili qoruyub saxlaya bilmişəm.Təəssüflər olsun ki, xaricdə yaşayan hər kəs deyil, bəzi insanlar o mühitə düşdükdən sonra, ana dilindən istifadə etmədikdə ana dili eroziyaya uğrayır, türk dili və yaxud türk dillərinə yaxın sözlər dilə daxil olur, dil yavaş-yavaş sıradan çıxır. Azərbaycan dilində doğru şəkildə danışa bilmirlər. Bu onların günahı deyil, onu qoruyub saxlaya bilərlər, amma istək, gündəlik həyatlarında ehtiyac olmaması səbəbindən bu hadisələr baş verir. Mənim işimin məhz bu sahədə olması, eyni zamanda daha çox ana dilimi sevdiyim üçün dilimizin doğru, düzgün istifadəsini qoruya bilirəm. Tərcüməçilik işində ana dilimizi qeyd etdiyim kimi, çox gözəl bilmək lazımdır. Davamlı şəkildə bu sahədə məsuliyyətli olmaq, işləmək lazımdır. Çünki, dil canlı varlıqdır. Dəyişir, indi dil iyirmi il əvvəlki işlək dildən də fərqlənir. Nümunə olaraq deyim ki, "parazit" deyilən bir söz var, hansı ki, mahnılarda belə bunu eşitmişəm, bunun istifadə edilməsi çox eybəcər görünür. Bizim ana dilimizdə feli sifət var. O istifadə edilməlidir. İnsanlar istifadə etmirlər, sanki qısa yol seçirlər. Mən buna linqvistik "tənbəllik" deyirəm. İnsanlar əsl uyğun ifadələri deyil, lazımsız sözləri dilimizə gətirirlər. Tərcüməçilər bunu qətiyyən etməməlidir. Tərcüməçilər dildə aparıcı qüvvədirlər, aynadırlar, onlar insanlara nümunə olmalıdırlar ki, dil hansı şəkildə işlədilməlidir, jurnalistlər kimi...

Diaspor təşkilatlarının bu sahədə fəaliyyətindən deyə bilərəm ki, məsələn Fransada, Paris şəhərində həftə sonu orada yaşayan, doğulub böyüyən uşaqlar üçün kurslar təşkil edirlər. Bu tam kifayət deyil. Ona görə ki, o uşaqlar ölkənin öz dilində, fransız dilində bağçaya gedir, məktəbə gedirlər, təhsil o dildədir. Bu səbəbdən dili istəsək də, istəməsək də fransız dilində və yaxud hansı ölkədə yaşayırsa o dildə olacaqdır. Azərbaycan dili burada sadəcə simvolik xarakter daşıyır, dili unutmasınlar, hardan gəldiklərini xatırlasınlar. Onlardan Azərbaycan dilində gözəl danışmalarını gözləmək sadəlövhlük olardı. Bu sahədə mən Rusiyanın, Türkiyənin də qeyd etdiyim kimi işlər apardığını müşahidə etmişəm. Məncə, daha çoxunu etmək olar.Və deyərdim ki, bu istiqamətdə ailələr də çalışmalıdır, maraq göstərməlidir".

**Elvin Abbasbəyli, Beynəlxalq Sinxron Tərcüməçilər Assosiasiyasının ilk azərbaycanlı üzvü və Fransada dövlət səviyyəsində ilk azərbaycanlı tərcüməçi, 8 dil bilən poliqlot**

# "AZLİNG-2023-Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" BEYNƏLXALQ ELMİ KONFRANS







"Artıq ikinci ildir ki, Neftçala rayonunda konfrans iştirakçısı oluram. Qürur duyuram ki, dilimizin saflığının qorunmasında aparılan bu möhtəşəm işlərin iştirakçısı və şahidi oluram. Azərbaycan dili dərsliklərini ali sayıram. Konfransda dünya alimlərinin iştirak etməsi dil məsələsinin önəm daşıdığından xəbər verir".

**Xanım Qasımova, filologiya üzrə fəlsəfə doktoru, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, müəllimlər üçün metodiki vəsaitlərin müəllifi**

"Artıq ənənəyə çevrilən AZLİNG konfransı dilçi alimlərin bir yerə toplaşdığı dilimizin və dilçiliyimizin birgə müzakirə etdiyi bir platformaya çevrilib.Bu mənada konfransın keçirilməsi dilçiliyimizin inkişafı baxımından olduqca aktualdır. Konfransın regionda keçirilməsi də faydalıdır. Bu region gənclərinin də elmə marağını artırır. Məlumdur ki, "2023-cü il Heydər Əliyev ili"dir. Konfransın ilin sonunda keçirilməsi elmi ictimaiyyət üçün də böyük töhfə oldu".

**Rasim Heydərov, dosent.**

"Konfrans ölkəmizin regionlarında, o cümlədən Neftçalada elmi-mədəni mühitin formalaşdırılması baxımından əhəmiyyətlidir. Bu həm də ölkəmizin tarixi parçası olan rayonumuzun beynəlxalq miqyasda tanınması deməkdir".

**Pərvin Eyvazov, BDU-nin Türkoloji araşdırmalar RTL-in elmi işçisi.**

"Bu konfrans Azərbaycan dilçiliyinin inkişafına öz töhfəsini verəcəkdir. Müxtəlif mövzularda çıxış edən mütəxəssislərin mövqeləri arasında yekdil fikir olsaydı, bu elmimizin xeyrinə olardı".

**Rüfət Rüstəmov, BDU-nun Türk filologiyası kafedrasının müdiri, filologiya elmlər doktoru, professor.**

"Neftçalada keçirilən Beynəlxalq Elmi Konfransda iştirak etməyimlə qürur duyuram. Əgər bu tədbir Bakıda baş tutsaydı, təəccüblənməzdik. Hər kəsdən uzaqda belə mütəxəssislər məclisinin keçirilməsinə çox sevinirik. Neftçala sakinlərinin dilində çox zəngin dialekt fondu var. Ədəbi dilimiz üçün bazalardan, bu dialektlərin öyrənilməsində köməklərini bizdən əsirgəməsinlər".

**Nadir Məmmədli, AMEA Nəsimi adına Dilçilik institutunun direktoru**

"İkinci ildir ki, belə bir tədbirdə iştirak edirəm. Dilçiliyin Azərbaycanın bölgələrdə müzakirəsini alqışlayıram. Dilçi olduğum üçün ana dilimizə məhəbbətim sonsuzdur. Bu sevgi bir dilçi kimi məni Azərbaycan dilçiliyinin hələ də öyrənilməmiş sahələrini araşdırmağa ruhlandırır. Bu tədbiri təşkil edənlərə öz təşəkkürümü bildirirəm.

**İsmayıl Kazımov, filologiya elmləri doktoru, professor**

"İlk dəfədir Neftçala rayonunda keçirilən "AZLİNG -2023 Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı Beynəlxalq Elmi Konfransda iştirak edirəm. Düşünürəm ki, konfransın əhəmiyyəti daha çox ondadır ki, ana dilimizin özəlliyi və önəmini paytaxtdan kənarda da təbliğ edə bilək. Bu tədbir ana dilimizi müxtəlif aspektlərdən tədqiq edən alimləri bir araya gətirərək dilimizin inkişafı və təbliği ilə bağlı yeni ideyaları da formalaşdırır. Gənc alimlərin bu formada tədbirlərə cəlb olunması da, onların dilimizin təbliği, yaşadılması, saflığını, milliliyini saxlayaraq gələcək nəsillərə ötürülməsi istiqamətində görüləcək işlərinə təkan vermiş olur. Ana dilimizi sevməyimizin, sevdirməyimizin əsası ailədən başlayır. Hər birimiz ailəmizdə Azərbaycan dilimizin qoruyucusu kimi çıxış etməliyik. Övladlarımıza dilimizi sevdirə bilməsək, gələcəkdə təhsil sahəsində çalışan müəllimləri bu cəbhədə tək qoymuş olarıq. Düşünürəm ki, dilimizi qorumaq sahəsində "bir yumruq" kimi olmalıyıq. Dilimizin saflığının qorunması və düzgün istifadəsinə nail olmaq üçün əlimizdən gələni əsirgəməməliyik.

**Həsənova Könül İsrafil qızı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru.**

"23 dekabr tarixində Neftçala şəhərində "AZLİNG -2023-Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı Beynəlxalq Elmi Konfransda iştirak etdim. Qeyd edim ki, artıq ikinci dəfədir ki, AZLİNG konfransında iştirak edirəm. Keçən il gəldiyim zaman ilk dəfə Neftçalada dilimiz, dilçilik naminə keçirilən konfransın regionda belə möhtəşəm təşkili məni çox sevindirdi. Dilimizə dəyər, hörmət, sevgi aşıladıqları üçün təşkilatçılara, əməyi keçən insanlara dilçi olaraq təşəkkürümü bildirirəm.

**Muxtarzadə Gülnar Fuad qızı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müəllimi.**

"Birinci dəfədir ki, Neftçala rayonunda "AZLİNG -2023 Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı Beynəlxalq Elmi Konfransda iştirak edirəm. İlk konfransda onlayn olaraq qoşulmuşdum. Lakin konfransın mütəşəkkil təşkilini görərək, mən də canlı olaraq iştirak etmək istədim. Konfrans böyük zəhmətin bəhrəsi olaraq hazırlanıb, mükəmməl şəkildə həyata keçirildi. Deyim ki, konfransda çıxışlar və bölmə iclaslarının polimika ilə keçirilməsi məndə müsbət hisslər yaratdı. Bu konfransın davamlı keçirilməsi həm tədqiqatçılar, həm də ziyalılar üçün müsbət nəticə verdi və verəcəkdir. Bu konfransın keçirilməsində əməyi olan hər kəsə Qüdsiyyə Qəmbərovaya, Aqşin Əliyevə, Könül Məmmədovaya təşəkkür edirəm.

**Qənirə İzzətulla qızı Əsgərova, Naxçıvan Dövlət Universiteti, dosent**

"AZLİNG-2023-Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı Beynəlxalq Elmi Konfransda ikinci dəfədir ki, iştirak edirəm. Bu dəfə keçirilən konfrans əhəmiyyətinə, əhatə dairəsinə, təşkilinə görə yaxşı mənada fərqlənir. Bu konfrans həm də, Ulu Öndərin 100 - illik yubileyinə həsr olunub. Bu mənada konfransın aktuallığı daha da artmış olur. Biz konfransda, panel iclaslarında da qeyd etdik ki, çox yaxşı haldır ki, Azərbaycan Respublikasının həyata keçirdiyi prioritet istiqamətlərdən bir də dövlət dil siyasətidir. Gənc bir dilçi kimi bildirmək istəyirəm ki, cənab Prezidentin bu sahədə qəbul etdiyi qərarlar, fərman və sərəncamlar, xüsusilə, 9 aprel 2013-cü ildə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Sərəncam bu sahədə çox əhəmiyyətlidir. Burada Ana dilini qorumaq, saflığı uğrunda mübarizə aparmaq xüsusi bir xətt kimi keçir. Çox yaxşı haldır ki, bu istiqamətdə sil-silə tədbirlər həyata keçirilir. Azərbaycan dilinin saflığının qorunması üçün bütün xidmət sahələrində, internet resurslarında, reklam daşıyıcılarında dil normalarının pozulmasına qarşı mübarizə aparmaq hər bir vətəndaşımızın borcudur. Biz də bu yolda mübarizə aparmalıyıq. Sonda bir məqamı da qeyd etmək istəyirəm ki, mənim müəllimim olmuş Elbəyi Maqsudov həmişə deyirdi ki, "Dilə xidmət etsəm bir vergül qədər, özümü dünyada xoşbəxt sanaram". Bizim də bir vergül qədər xidmətimiz olarsa bu xoşbəxtliyimiz olar. Konfransın işinə uğurlar arzu edirəm".

**İlkin Əsgərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin Azərbaycan dilinin tədrisi texnologiyası kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru**











İlk növbİədə Ulu Öndər Heydər Əliyev adına bu gözəl Mərkəzdə AZLİNG- 2023 konfransında iştirak etməyimdən qürür duyuram. Azərbaycan dili və müasir dilçiliklə bağlı təşkil olunan bu Beynəlxalq Elmi Konfransda ikinci ildir ki, iştirak edirəm. Konfransın Ulu Öndər Heydər Əliyevin 100-illik yubileyi ilində təşkil olunması da, hər birimizin üzərinə məsuliyyət qoyur. Mən bilirəm ki, Neftçala rayonu Qəhrəman oğullar vətənidir. Bu yer neçə-neçə şəhidi olan, üç Azərbaycanın Milli Qəhrəmanı, bir Vətən Müharibəsi Qəhrəmanı ilə seçilən rayondur. Allah cəmi şəhidlərimizə rəhmət eləsin.

Eyni zamanda Neftçala əhalisi öz səmimiyyəti ilə diqqəti çəkir. Mən burada 2013-cü ildə bir aya yaxın müddətdə sosial iş aparmış, təmsilçi olaraq əhali ilə sıx ünsiyyətdə olmuşam. Bu zaman Neftçalalı gənclərin biliyə, elmə həvəsli olmalarının şahidi olmuş, onların öz bacarıq və qabiliyyətlərini inkişaf etdirməkdən ötrü çox çalışmalarını alqışlamışam.

**Sevinc Nazim qızı Nuriyeva, Oddlar Yurdu Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, Beynəlxalq Humanistika İnstitutu İB-nin sülh səfiri, təlimçisi.**

# “GÜNDOĞAR” ABUNƏ OLANLARA TƏŞƏKKÜR EDİR!

## “ƏBƏDİ ÖMRÜN 100 İLİ”





Neftçala rayon M. Səfərov adına İnteqrasiya təlimli, internat tipli gimnaziyada mütəmadi olaraq bir sıra tədbirlər təşkil olunur. Belə tədbirlərdən son aylarda “Şəhidlər məzarı əbədi and yerimizdir”adlı tədbir Neftçala şəhidlərinin əziz xatirəsinə həsr olunmuşdur. Tədbirdə yazıçı B. R. Həsənqızının 44 gün davam edən Vətən müharibəsində şəhadətə ucalmış Neftçala şəhidlərinin əziz xatirəsinə həsr etdiyi “Nəfəsimiz Vətəndir!” kitabı haqqında məktəblilərə ətraflı məlumat verilib. Növbəti tədbir noyabr ayının 29-da Ulu Öndər Heydər Əliyevin 100-illik yubileyi ilə əlaqədar olaraq “Əbədi ömrün 100 ili” adı ilə təşkil edilmişdir. Tədbir Neftçala rayon Heydər Əliyev Mərkəzinin, Neftçala rayon MKS-in 3 saylı kitabxana filialının və M. Səfərov adına İnteqrasiya təlimli, internat tipli gimnaziyanın əməkdaşlarının birgə təşkilatçılığı ilə təşkil edilmişdir. Tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin siyasi irsinin, onun Azərbaycan xalqı, dövləti üçün fədakar xidmətini geniş şəkildə məktəblilərə çatdırıblar. Tədbirdə məktəblilərdən 6 “A” sinif şagirdləri Yoldaşlı Xanım, Hüseynzadə Mələk, Ağaverdili Güllü və 6 “C” sinif şagirdləri Cəbrayılova Leyla, Cəfərli Ayla, Əhədzadə Gülinə Ulu Öndər Heydər Əliyevin əziz xatrəsinə həsr edilmiş ədəbi kompozisiya ilə çıxış etdilər.

**Samirə Həmzəyeva**



11.12.2023-cü il tarixində “Heydər Əliyev ili” çərçivəsində Asif Səlimov adına 2 saylı Mayaq kənd məktəbində Zəfər tariximiz, böyük Zəfərimizin unudulmaz qəhrəmanları mövzusuna həsr edilmiş “İmzalı görüş” keçirildi. Məktəbin dəvətinə əsasən təşkil olunmuş görüşdə qonaq qismində rayonumuzun ictimai-siyasi qəzeti olan “Gündoğar”ın baş redaktoru, yazıçı-publisist Bədirə Rza Həsənqızı və Nəzakət Quluqızı iştirak etdi. Tədbirdə müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda can fəda edən Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra davam edən tədbirdə çıxış edən B.R.Həsənqızı və N.Quluqızı məktəblilərə vətənpərvərlik mövzusunda, vətənpərvərlik duyğularının qorunması, inkişafı, bu istiqamətdə aparılan dövlət siyasəti və dövlət qayğısı haqqında, həmçinin, torpaqlarımızın azadlığı uğrunda canından keçən igid vətən oğullarımızın hünər və rəşadəti haqqında məlumat verdilər. Mövzu ilə əlaqədar video-çarx izləndikdən sonra qonaq yazıçıların müəllifi olduqları kitablar məktəblilərə təqdim olundu, haqqında danışıldı. Müəlliflər vətənpərvərlik mövzusunda yazdıqları kitabları məktəb kitabxana fonduna hədiyyə etdilər. Tədbir xatirə fotoları ilə başa çatdı.

**Əziz oxucular! Hər birinizi “31 Dekabr DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ” və Yeni-2024-cü ilin gəlişi münasibətilə təbrik edirik. Bütün Vətənimizə, xalqımıza sülh, xoşbəxtlik, uğurlu inkişaf diləyirik.**

**2024-cü il hər biriniz üçün uğurlu, xoş anlarla yaddaqalan il olsun!**



*XOŞ GƏLİRSƏN YENİ İL,*
*QƏDƏMLƏRİN MÜBARƏK!*
*YURDUMA TARİX YAZAN,*
*HƏR SAATIN, DƏQİQƏN,*
*XOŞ SABAHIN MÜBARƏK!..*

## 13 YAŞLI ÇEMPİON



**Qəzetimizin 2022-ci il, elə dekabr sayında Əli Sahib oğlu Əlikram haqqında məlumat vermişdik. Bu il məktəbli çempion yenə uğur qazanmışdır. Belə ki, 2023-cü ilin dekabr ayının 4-də Türkiyənin Bursa şəhərində Dünya Alpaqut Federasiyasının təşkilatçılığı ilə keçirilən 4-cü Alpaqut qurşaq (güləş) çempionatında çıxış edərək 2-ci dəfə dünya çempionu oldu. Əli Sahib oğlu Əlikram Bakı şəhərində yaşayır, əslən Neftçala rayonunun I Qaralı kəndindəndir. 13 yaşlı ÇEMPİONUMUZ bu yarışda qazandığı 50-ci medalı, idman uğuru ilə bütün doğmalarını, müəllimlərini, dostlarını yenidən sevindirmişdir. İkiqat dünya Çempionu adı qazanan Əli Əlikramın uğurlarına sevinir, bir daha təbrik edir, uğurlara gedən yolun hər zaman açıq olsun deyirik.**

## ABUNƏ OL, BİRLİKDƏ YAŞADAQ!

**ELAN**

**Bildirilir ki, Neftçala rayon sakini Şərifova Könül Siyahət qızına 2000-ci tədris ilində Neftçala şəhər N. Gəncəvi adına 3 saylı tam orta məktəbinin XI sinfini bitirməsi haqqında verilmiş B№ 650996 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet “Gündoğar”ın redaksiyasında yığılıb, səhifələnib, “AZƏRMEDİA” mətbəəsində çap olunmuşdur. Tiraj:250